AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

BAKI DÖVLƏT UNİVERSİTETİNİN

# ŞƏRQŞÜNASLIQ

JURNALI

---

JOURNAL OF

# ORIENTAL STUDIES

OF BAKU STATE UNIVERSITY

1/2026

**ISSN (Online) 3134-7231**
**ISSN (Print) 3134-9013**

**Bakı – 2026**

*Azərbaycan Respublikası Ədliyyə Nazirliyində*
*21 oktyabr 2021-ci il tarixində qeydiyyatdan keçmişdir*
*(Mətbu nəşrlərin reyestrinə daxil edilmə nömrəsi 4361)*

*Baş redaktor:*
***akademik* Rafael Hüseynov**

## Redaksiya heyəti:

**BELLİNGERİ CAMPİERO**
Professor; Venesiya Ka Foskari Universiteti, İtaliya
**CAVADİ HƏSƏN**
Professor; Kaliforniya Universiteti, ABŞ
**CƏLİLOV OQTAY**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**ÇALİSOVA NATALİYA**
Filologiya elmləri doktoru, professor;
Rusiya Dövlət Humanitar Universiteti, Rusiya
**EKİCİ METİN**
Professor; Ege Universiteti, Türk Dünyası Araşdırmaları İnstitutu, Türkiyə
**FİLİPPOV ALEKSANDR**
Filologiya elmləri doktoru, professor;
Sankt-Peterburq Dövlət Universiteti, Rusiya
**XƏNDAN AYDAN**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**KAZIMOV MEHDİ**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QARADAĞLI VÜQAR**
Filologiya elmləri doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**QASIMOVA AİDA**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**LO MBAYE**
Professor; Dyuk Universiteti, ABŞ
**MANSOOR ASMA**
Professor; İslamabad Beynəlxalq İslam Universiteti, Pakistan
**MƏMMƏDOVA ƏSMƏTXANIM**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Bakı Dövlət Universiteti, Azərbaycan
**NİKOLAYEVA MARİYA**
Filologiya elmləri üzrə fəlsəfə doktoru, dosent;
Rusiya Elmlər Akademiyası, Rusiya
**OÇİLOV OZODCON**
Filologiya elmləri üzrə fəlsəfə doktoru;
Özbəkistan Dövlət Şərqşünaslıq Universiteti, Özbəkistan
**RƏSULOV ƏSGƏR**
Filologiya elmləri doktoru, professor;
Milli Arxiv İdarəsi, Azərbaycan
**RÜSTƏMOV RÜFƏT**
Filologiya elmləri doktoru, professor;
Bakı Dövlət Universiteti, Azərbaycan
**SUFİYEV ŞODİMAXAMMAD**
Filologiya elmləri doktoru, professor;
Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan
**TOBİA STEFAN**
Professor; Strasburq Universiteti, Fransa

Bakı Dövlət Universitetinin **ŞƏRQŞÜNASLIQ** jurnalı/Journal of **ORIENTAL STUDIES** of Baku State University, № 1, 2026. – 168 səh. Bakı, BDU, 2026.

© Bakı Dövlət Universiteti, 2026

## ƏDƏBİYYATŞÜNASLIQ

*ƏQİQ CƏFƏRZADƏ Gülnar*
**QACAR ŞAHZADƏLƏRİNİN BƏDİİ İRSİ – MƏHƏMMƏDƏLİ MİRZƏ DÖVLƏTŞAH**
The Literary Legacy of Qajar Princes – Mohammad-`Ali Mirza Dowlatshah **13**
https://doi.org/10.30546/209805.2026.105.1.305

*HÜSEYNBALAYEVA Təranə*
**"ƏHDİ-ƏTİQ" MƏTNLƏRİNDƏ QƏHRƏMANLIQ MÖVZUSU VƏ ONUN DÜNYA ƏDƏBİYYATINDA ARXETİPİK YERİ**
The Theme of Heroism in the Texts of the Old Testament and Its Archetypal Role in World Literature **23**
https://doi.org/10.30546/209805.2026.105.1.309

*HÜSEYNOV Rafael*
**THE POWER OF THE CLASSICAL PERSIAN POETIC HERITAGE TO ENDURE AND SERVE AS A MODEL**
Klassik farsdilli poetik irsin yaşamaq və örnək olmaq gücü **34**
https://doi.org/10.30546/209805.2026.105.1.312

## DİLÇİLİK

*ƏLİBƏYLİ Şəfəq*
**FÜZULİNİN "SAQİNAMƏ" ƏSƏRİNİN TƏRCÜMƏSİNİN LİNQVOPOETİK XÜSUSİYYƏTLƏRİ**
Linguopoetic Features of The Translation of Fizulu "Saginama" **73**
https://doi.org/10.30546/209805.2026.105.1.321

*QARADAĞLI VÜQAR*
**THE FUNCTIONAL DOMAINS OF *JARR* AND *NAṢB* IN ARABIC: A CONTRASTIVE ANALYSIS WITH THE AZERBAIJANI CASE SYSTEM**
Ərəb dilində *jarr* və *naṣb*-ın funksional sahələri: Azərbaycan dilinin hal kateqoriyası ilə müqayisəli təhlil **83**
https://doi.org/10.30546/209805.2026.105.1.328

*MƏMMƏDOVA Ziyafət*
**KLASSİK FARSDİLLİ POEZİYA NÜMUNƏLƏRİNDƏN SEÇİLMİŞ BİTKİ ADLARININ İZAHLI LÜĞƏTİ**
An Explanatory Dictionary of Plant Names Based on Selected Examples of Classical Persian Poetry **95**
https://doi.org/10.30546/209805.2026.105.1.335

## TƏRCÜMƏ NƏZƏRİYYƏSİ VƏ ÇEVİRMƏLƏR

*XƏNDAN Aydan*
**MEHMET KAPLAN. ŞEİR TƏHLİLLƏRİ 2 (CÜMHURİYYƏT DÖVRÜ TÜRK ŞEİRİ)**
Mehmet Kaplan. Poetry Analysis 2. (Turkish Poetry of the Republican Period) **119**
https://doi.org/10.30546/209805.2026.105.1.333

*QASIMOVA Aidə*
**ÜMİD SAFİ. RADİKAL EŞQ: İSLAM MİSTİK ƏNƏNƏLƏR TƏLİMİ**
Omid Safi. Radical Love: Teachings from Islamic Mystical Tradition **124**
https://doi.org/10.30546/209805.2026.105.1.337

## TƏQDİMATLAR, RƏYLƏR, DƏYƏRLƏNDİRMƏLƏR

*GÜLTEKİN İlhamə*
**ƏHMƏD HƏZİNİNİN "CAMİÜL-MÜRŞİDİN" ƏSƏRİNİN BERLİN KİTABXANASINDA QORUNAN YEGANƏ ƏLYAZMA NÜSXƏSİ HAQQINDA**
About The Only Manuscript Copy of Ahmed Hazini's Jâmiu'l-Murshidîn Preserved In The Berlin Library **139**
https://doi.org/10.30546/209805.2026.105.1.345

*HÜSEYNOV Rafael*
**TƏSƏVVÜF POEZİYASININ MAHİYYƏTİNİN DƏRKİ VƏ TƏŞƏKKÜLÜNÜN DÜZGÜN TƏSƏVVÜRÜ ÜÇÜN GƏRƏK OLAN TƏMƏL ŞƏRTLƏR**
The fundamental conditions necessary for a scientific understanding of the essence of Sufi poetry and a proper understanding of the process of its formation **146**
https://doi.org/10.30546/209805.2026.105.1.348

**APA7 qaynaq göstərmə təlimatı** **164**

**Nəşrə dair tələblər** **166**

**Publication requirements** **167**

**UOT 297.18**
**DOİ** https://doi.org/10.30546/209805.2026.105.1.309

# "ƏHDİ-ƏTİQ" MƏTNLƏRİNDƏ QƏHRƏMANLIQ MÖVZUSU VƏ ONUN DÜNYA ƏDƏBİYYATINDA ARXETİPİK YERİ

**TƏRANƏ HÜSEYNBALAYEVA***

**Xülasə**

*Bu məqalədə "Əhdi-Ətiq" mətnlərində qəhrəmanlıq mövzusu və onun dünya ədəbiyyatında arxetipik rolu araşdırılır. Bibliya rəvayətlərində qəhrəmanlıq yalnız fiziki gücün və ya hərbi igidliyin təzahürü kimi deyil, ilk növbədə mənəvi dözüm və əxlaqi mübarizənin ifadəsi kimi təqdim olunur. İbrahim, Əyyub və Şaul obrazları, həmçinin, onların daxili qarşıdurma, şübhə və ilahi iradə qarşısında daşıdıqları məsuliyyət motivləri tədqiqatın əsas obyektini təşkil edir. Bibliya qəhrəmanı çox vaxt şəxsi istəklə ali əxlaqi qanun arasında çətin seçim qarşısında qalır. Bu hekayələr dünya ədəbiyyatının sonrakı inkişafına mühüm təsir göstərmiş davamlı arxetiplərin formalaşmasına zəmin yaratmışdır. Məqalədə "Əhdi-Ətiq" motivləri Uilyam Şekspir, Fyodor Dostoyevski və Frans Kafka yaradıcılığı ilə müqayisəli şəkildə təhlil olunur. Göstərilir ki, "Əhdi-Ətiq" personajlarının psixoloji dərinliyi və faciəviliyi Yeni dövr ədəbiyyatının qəhrəman obrazlarında öz əksini tapmışdır. Beləliklə, "Əhdi-Ətiq" dünya ədəbiyyatı ənənəsində qəhrəmanlıq şüurunun arxetipinin formalaşmasının fundamental mənbələrindən biri kimi qiymətləndirilir.*

**Açar sözlər:** *"Əhdi-Ətiq", qəhrəmanlıq motivi, "Əhdi-Ətiq" qəhrəmanları, arxetip, psixoloji mübarizə, mənəvi sınaq, dünya ədəbiyyatı.*

## Giriş

Ədəbiyyatda qəhrəmanlıq anlayışı şəxsiyyətin yüksək mənəvi keyfiyyətlərini, cəsarətini, fədakarlığını və ideallara sədaqətini ifadə edən davranış və seçimlər sistemi kimi dəyərləndirilir. Bu anlayış yalnız fiziki güc və döyüş bacarığı ilə məhdudlaşmır, mənəvi cəsarət, ədalət qarşısında düzgün mövqe tutmaq, başqalarının xeyrinə fədakarlıq göstərmək və yüksək ideallara sədaqət qəhrəmanlığın əsas komponentlərini təşkil edir.

Qəhrəmanlıq müxtəlif janrlarda və formalarda təzahür edir. Tarixi və epik ədəbiyyatda qəhrəmanlıq əsasən döyüş, şərəf, vətənə sədaqət və milli yaddaşla əlaqələndirilir. Homerin "İliada" əsərində Axilles və Hektor bu tip qəhrəmanlığın klassik nümunələri kimi çıxış edirlər. Romantik ədəbiyyatda qəhrəmanlıq daha çox mənəvi ideallaşdırma üzərində qurulur. Füzulinin yaradıcılığında aşiq obrazları sevgi və mənəviyyat uğrunda əzab çəkməyə hazır qəhrəmanlar kimi təqdim olunur.

Klassik ədəbiyyatda isə qəhrəmanlıq sosial və etik müstəvidə dərk edilir. Lev Tolstoyun "Hərb və sülh" romanında Pyer Bezuxov və knyaz Andrey fiziki igidlikdən çox mənəvi seçim və daxili inkişaf yolu ilə qəhrəmanlaşırlar. Simvolik və mənəvi qəhrəmanlıq fərdin daxili mübarizəsində özünü göstərir. Məsələn, Dostoyevskinin "Cinayət və

* Filologiya elmləri üzrə fəlsəfə doktoru; Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi; taranahuseynbalayeva@bsu.edu.az; https://orcid.org/0000-0002-1246-7842.

cəza" romanında Raskolnikovun vicdanla mübarizəsi bu tip qəhrəmanlığın parlaq nümunəsidir.

Ədəbiyyatda qəhrəmanlıq motivləri vətən uğrunda mübarizə, sevgi və sədaqət, ədalət axtarışı, sosial məsuliyyət, dostluq və ailə bağlılığı, eləcə də insanın öz daxili qorxuları və zəiflikləri ilə mübarizəsi ətrafında formalaşır.

Dünya və Azərbaycan ədəbiyyatında qəhrəmanlıq müxtəlif formalarda təcəssüm tapmışdır: Homerin "İliada"sında epik qəhrəmanlıq, "Kitabi-Dədə Qorqud"da milli və kollektiv qəhrəmanlıq, Nizami Gəncəvinin "Leyli və Məcnun", o cümlədən də "Xosrov və Şirin" əsərlərində mənəvi və romantik qəhrəmanlıq, Tolstoyun "Hərb və sülh" romanında mənəvi-sosial qəhrəmanlıq, Cəlil Məmmədquluzadənin "Ölülər" əsərində və Əbdürrəhim bəy Haqverdiyevin "Aydın" dramında isə etik və sosial məsuliyyətə əsaslanan qəhrəmanlıq ön plana çıxır.

Ədəbiyyatşünaslıqda qəhrəmanlıq mövzusu əsasən tarixi-milli qəhrəmanlıq, sosial və müasir qəhrəmanlıq, mənəvi-simvolik qəhrəmanlıq və qadın qəhrəmanlığı istiqamətlərində tədqiq edilir. Bu yanaşmalar qəhrəmanlıq anlayışının həm tarixi dəyişkənliyini, həm də onun çoxşaxəli mahiyyətini üzə çıxarır. Məhz bu universal mahiyyət "Əhdi-Ətiq" mətnlərində xüsusi sistemlilik və dərinlik qazanaraq dünya ədəbiyyatı üçün arxetipik model formalaşdırmışdır.

## 1. "Əhdi-Ətiq"də qəhrəmanlıq anlayışı

"Əhdi-Ətiq" yalnız dini mətnlər toplusu deyil, eyni zamanda, qədim Yaxın Şərq mədəniyyətinin, etik düşüncəsinin və ədəbi təxəyyülünün daşıyıcısı hesab edilə bilər. Burada təqdim olunan qəhrəman obrazları sonrakı dövrlərdə formalaşan dünya ədəbiyyatı üçün arxetipik nümunələr – narrativ struktur və obrazlar sistemi yaratmış, müxtəlif janr və ədəbi ənənələrdə yenidən interpretasiya edilmişdir (Auerbach, 1953).

Bu məqalədə "Əhdi-Ətiq" mətnlərində qəhrəmanlıq anlayışı müxtəlif obrazlar və süjetlər əsasında təhlil edilir, onların dünya ədəbiyyatındakı yeri və təsiri araşdırılır.

İlk növbədə vurğulamaq lazımdır ki, "Əhdi-Ətiq" qəhrəmanlığının əsas xüsusiyyətlərindən biri onun ideallaşdırılmamasından ibarətdir. "Əhdi-Ətiq" qəhrəmanları qüsursuz və mükəmməl obrazlar deyil, onlar səhv edən, tərəddüd yaşayan və mənəvi seçim qarşısında qalan insanlardır. Bir sıra Avropa tədqiqatçıları belə hesab edirlər ki, bu xüsusiyyət "Əhdi-Ətiq" narrativlərini mifoloji idealizmdən realist və psixoloji dərin ədəbi qaynağa çevirir (Alter, 1981).

"Əhdi-Ətiq"də qəhrəmanlıq statik vəziyyət deyil, davamlı sınaqlar və daxili mübarizə prosesi kimi təqdim olunur. Qəhrəmanın dəyəri onun fiziki gücündə deyil, məsuliyyətli qərar vermək və bu qərarların nəticələrini qəbul etmək qabiliyyətində ifadə olunur. Bu yanaşma sonradan dünya ədəbiyyatında "faciəvi qəhrəman" və "psixoloji qəhrəman" modellərinin formalaşmasına ciddi təsir göstərmişdir (Campbell, 1949).

Ədəbi baxımdan unikal bir mənbə hesab edilən "Əhdi-Ətiq" qəhrəmanlıq anlayışını çoxölçülü şəkildə təqdim edir. Burada qəhrəmanlıq yalnız fiziki güc və döyüş bacarığı ilə ölçülmür, həm də mənəvi cəsarət, Tanrıya sədaqət, etik prinsiplərə bağlılıq və kollektiv məsuliyyət kimi aspektləri əhatə edir. "Əhdi-Ətiq"dəki klassik qəhrəmanlar – Musa, Davud, Samson və Yusif kimi obrazlar – həm tarixi, həm dini, həm də mənəvi çərçivədə fəaliyyət göstərir, eyni zamanda, yeni süjetlər və motivlər ədəbiyyatda qəhrəmanlıq anlayışını zənginləşdirir. Bu elementlər qadın qəhrəmanlığı, intellektual və mənəvi qəhrəmanlıq, daxili mübarizə, kollektiv məsuliyyət və etik dilemmaları əhatə

edir. "Əhdi-Ətiq"dəki qəhrəmanlıq motivləri dünya ədəbiyyatında epik, faciəvi, psixoloji və sosial janrlara təsir göstərmişdir.

"Əhdi-Ətiq"də qəhrəmanlıq motivləri əsasən üç istiqamətdə inkişaf edir: fiziki igidlik, mənəvi və dini sədaqət, həmçinin, fədakarlıq və liderlik. Fiziki igidlik məsələsi Davudun Qoliatı məğlub etməsi və Samsonun düşmənlərlə döyüşləri kimi nümunələrdə görünür. Mənəvi sədaqət isə Musa və Yusifin Tanrı ilə olan əlaqələrində və strateji qərarlarında özünü göstərir. Fədakarlıq və liderlik motivi isə həm Musa və Yusifin xalqı qorumaq üçün verdiyi qərarlarda, həm də Ester və Mordexayın diplomatik və etik seçimlərində təzahür edir. Bunu daha ətraflı nümunələrdə nəzərdən keçirək.

## 2. "Əhdi-Ətiq"də qadın qəhrəmanlığı

"Əhdi-Ətiq" qadın qəhrəmanlığını açıq hərbi gücdən çox strateji düşüncə, siyasi çeviklik və fədakarlıq üzərində qurur. Qadın qəhrəmanlardan Debora[1] hakim və peyğəmbər kimi çıxış edərək xalqın taleyində həlledici rol oynayır; onun cəsarəti ağıllı qərarlar və mənəvi nüfuz üzərində qurulmuş alternativ qəhrəmanlıq modelini təqdim edir (Alter, 1981). Ester[2] isə şəxsi təhlükəsizliyini riskə ataraq xalqını məhv olmaqdan xilas edir. Esterin qəhrəmanlığı səssiz, lakin son dərəcə təsirli bir fədakarlıq nümunəsidir. Bir sıra ədəbiyyatçılar bu qadın obrazlarının Antiqona[3] və Janna de Ark[4] kimi tipoloji paralellərlə dünya ədəbiyyatında qadın qəhrəmanlıq arxetiplərinin ilkin nümunələrini formalaşdırdığını qeyd edirlər (Frye, 1982).

"Əhdi-Ətiq"də qadın qəhrəmanlığı yalnız açıq siyasi və ya hərbi fəaliyyətlə məhdudlaşmır; o, ailə strukturu, nəsil davamlılığı, sədaqət, əxlaqi seçim və kollektiv taleyin formalaşması kimi fundamental sahələrdə də təzahür edir. Bu kontekstdə Sara, Raxel, Rut və Naomi kimi qadın fiqurlar "Əhdi-Ətiq" qəhrəmanlığının alternativ, lakin son dərəcə təsirli modellərini təqdim edir.

Sara (Yaradılış, 12–23) "Əhdi-Ətiq" tarixində ilahi vədin daşıyıcısı olan ilk qadın fiqurdur. Onun qəhrəmanlığı fiziki gücdə deyil, ilahi planın icrasında göstərdiyi dözüm və sədaqətdə təzahür edir. Sonsuzluq, köç həyatı və sosial qeyri-müəyyənlik şəraitində Sara İbrahimlə birlikdə Tanrı vədinə bağlı qalır. İshaqın doğulması ilə bağlı süjet Sarada bioloji analıqdan daha çox metafizik analıq funksiyasını ön plana çıxarır: o, İsrail xalqının genealoji və mənəvi başlanğıc nöqtəsinə çevrilir (Yaradılış, 21). Bu baxımdan Saranın qəhrəmanlığı səbir, iman və tarixi missiyanın səssiz daşıyıcısı kimi formalaşır (Trible, 1995: 34–41).

Yəhudi ədəbiyyatı, o cümlədən də mədəniyyətinin ən sevimli simalarından hesab edilən Raxel (Yaradılış, 29–35) qəhrəmanlığın emosional və varoluşsal ölçüsünü təmsil edir. O, sevgi, analıq arzusu və rəqabət şəraitində daxili əzab yaşayan qadın obrazıdır. Raxelin Yusif və Binyaminin anası olması onun tarixi rolunu müəyyənləşdirir: Yusif süjeti vasitəsilə Raxel İsrail tarixində kollektiv xilasa aparan genealoji xəttin əsas

---

[1] Əhdi-Ətiq, Hakimlər 4-5. Debora nəğməsi (qədim "Əhdi-Ətiq" poeziyasının ən erkən nümunələrindən biri, təxminən e.ə. XII əsr). Kitabda Deboranın İsrailin hakimi və peyğəmbəri kimi fəaliyyətindən, İsrail tayfalarının sərkərdəsi Barakla birlikdə Sisera üzərində qələbəsindən bəhs edir.

[2] Əhdi-Ətiq, Ester 1-10. Kitabda uzun müddət yəhudi kimliyini gizlədən, əsl adı Hadassa (Ester) olan yəhudi qızının Fars imperiyası dövründə I Kserks (ibri dilində – Axaşveroş) ilə evliliyindən və öz diplomatikliyi sayəsində xalqını kütləvi qırğından xilas etməsindən bəhs edilir.

[3] Sofoklun "Antiqona" adlı faciəsinin (e.ə. V əsr) baş qəhrəmanıdır. O, qardaşı Polinikin dəfnini qadağan edən hökmdar Kreontun əmrinə qarşı çıxaraq yazılmamış ilahi qanunları dövlət qanunlarından üstün tutur. Ədəbi obraz səviyyəsində Antiqona vicdanın səsi kimi çıxış edir.

[4] Janna de Ark – XV əsrdə Fransada ilahi çağırışla hərəkət etdiyinə inanan, Fransa ordusuna rəhbərlik edən və milli müqavimətin simvoluna çevrilmiş tarixi-ədəbi qəhrəmandır.

halqasına çevrilir. Raxelin ölümü (Yaradılış, 35:19) və sonradan "Yeremya kitabı"nda onun "övlad həsrətiylə ağlayan qadın" obrazına çevrilməsi (Yeremya, 31:15) onu "Əhdi-Ətiq" mədəni yaddaşında kollektiv matəm və ümid simvoluna çevirir (Alter, 1981: 63–70).

Dünya ədəbiyyatı, mədəniyyəti və incəsənətində bir çox əsərlərin qadın qəhrəmanlarının simvolik arxetipinə mənbə olan "Rut kitabı"[1] isə qadın qəhrəmanlığının etik və sosial modelini təqdim edir. Kitabda iki qadından bəhs edilir: yəhudi nəslindən olan Naomi və sonradan yəhudi nəslinin davamçısına çevrilən, amma əslində yəhudi deyil, muab nəslindən olan Naominin dul gəlini – Rut. Naominin qəhrəmanlığı passiv dözümdə deyil, strateji düşüncə və sosial adaptasiya bacarığında özünü göstərir. Naomi öz dul gəlini Rut ilə qohumu Boazın münasibətini planlaşdıraraq ailə xəttinin və sosial təhlükəsizliyin bərpasına nail olur (Rut, 3). Bu baxımdan Naomi bir çox ədəbi tənqidçilər tərəfindən gizli liderlik və nəsil strategiyasının simvolu hesab edilir (Exum, 2000: 118–125).

Rut isə "Əhdi-Ətiq"də mənşəcə israilli olmayan, lakin mənəvi seçim yolu ilə İsrail xalqının taleyinə daxil olan yeganə qadın qəhrəmanlardan biridir. Onun qayınanasına söylədiyi məşhur ifadəsi – "Sənin xalqın mənim xalqım olacaq, sənin Tanrın mənim Tanrım olacaq; sən haraya getsən, mən də ora gedəcəyəm, sənin ayaq basdığın yerə mən də ayaq basacağam; sənin öldüyün yerdə mən də ölərəm" (Rut, 1:16) – qəhrəmanlığın etnik deyil, etik və mənəvi seçimlə formalaşdığını göstərir. Rutun sədaqəti və əmək fəaliyyəti onu həm sosial, həm də mənəvi qəhrəman edir. Onun Davudun ulu nənəsi olması (Rut, 4:17) "Əhdi-Ətiq" qəhrəmanlığında qadın təşəbbüsünün tarixi nəticələrini açıq şəkildə ortaya qoymuşdur.

Nümunələrdən də göründüyü kimi, Sara, Raxel, Rut və Naomi obrazları "Əhdi-Ətiq"də qadın qəhrəmanlığının çoxqatlı arxetipini formalaşdırır. Bu arxetip hərbi gücdən deyil, sədaqət, iman, strateji düşüncə, sosial məsuliyyət və mənəvi seçimlərdən qaynaqlanır. Bu model sonrakı dünya ədəbiyyatında qadın qəhrəmanlığının etik, psixoloji və kollektiv yönümlü formalarının yaranmasına güclü təsir göstərmişdir (Jung, 1968: 201–215).

## 3. Mənəvi mübarizə və psixoloji mürəkkəblik: Əyyub, Saul və Amos

"Əhdi-Ətiq" qəhrəmanlıq anlayışını yalnız xarici fəaliyyət və fiziki igidliklə məhdudlaşdırmır, əksinə, insanın daxili aləmini, psixoloji sarsıntılarını və mənəvi seçimlərini mərkəzə çəkir. Bu baxımdan Əyyub, Saul və Amos obrazları "Əhdi-Ətiq" mətnlərində daxili mübarizə və psixoloji mürəkkəbliyin ən dərin və konseptual nümunələrini təşkil edir.

"Əyyub kitabı" "Əhdi-Ətiq" ədəbiyyatında əzab, ədalət və ilahi iradə probleminin ən sistemli fəlsəfi ifadəsidir. Əyyub saleh və Tanrıya sədaqətli bir insan olmasına baxmayaraq, ardıcıl olaraq ailəsini, var-dövlətini və sağlamlığını itirir (Əyyub, 1–2). Onun qəhrəmanlığı əzabdan qaçmaqda deyil, bu əzabın mənasını sorğulamaq cəsarətində təzahür edir. Əyyub Tanrı ilə dialoqa girir, susmur və izah tələb edir; bu isə onu passiv dözümlü fiqurdan fəlsəfi qəhrəmana çevirir. Onun daxili mübarizəsi insanın ilahi ədalət qarşısında mövqeyini müəyyənləşdirir: insan nə tam itaətkar, nə də üsyankar olmalıdır, o, sual vermək hüququna malikdir (Əyyub, 3–31). Tanrının cavabı isə rasional izah deyil, ilahi miqyasın nümayişidir (Əyyub, 38–41). Əyyubun qəhrə-

[1] Tanax, Yazılar, Rut kitabı 1-4.

manlığı əzab içində imanla yanaşı, ontoloji düşünmə cəsarətində ifadə olunur (Ricoeur, 1995: 289–304). Bununla yanaşı, "Əyyub kitabı" "Tanax"da[1] qəhrəmanlığın ən radikal reinterpretasiyasını təqdim edir. Əyyub nə döyüşür, nə qaçır, nə də möcüzə göstərir. O, izah olunmayan əzab qarşısında imanını və Tanrı ilə dialoqunu qoruyur. Tanrı Əyyuba Leviatanı[2] göstərərək insanın ilahi miqyasda yerini xatırladır (Əyyub, 41). Əyyubun qəhrəmanlığı səssiz dözümdə və sual vermək cəsarətində təcəssüm edir.

Saul obrazı isə "Əhdi-Ətiq"də psixoloji dağılma və faciəvi daxili parçalanmanın klassik nümunəsidir. İsrailin ilk kralı olan Saul əvvəlcə ilahi seçilmiş və xalq tərəfindən qəbul edilmiş lider kimi təqdim olunur (1 Şamuel, 9–11). Lakin onun qəhrəmanlıq yolu Tanrı iradəsi ilə şəxsi ambisiya arasındakı ziddiyyət üzərində qurulur. Saulun əsas daxili münaqişəsi itaət və hakimiyyət ehtirası arasındadır. Amaleklilərə qarşı yürüşdə Tanrının əmrini tam yerinə yetirməməsi (1 Şamuel, 15) onun ilahi legitimliyini itirməsinə səbəb olur. Bu andan etibarən Saul psixoloji parçalanma yaşayır: qorxu, qısqanclıq və paranoya onu Davuda qarşı aqressiv davranışlara sürükləyir (1 Şamuel, 18–26). Saulun Endor cadugərinə müraciəti (1 Şamuel, 28) isə onun mənəvi böhranının kulminasiyasıdır – Tanrı ilə əlaqəni itirmiş kral qadağan olunmuş vasitələrlə taleyini öyrənməyə çalışır. Saulun ölümü (1 Şamuel, 31) "Əhdi-Ətiq"də qəhrəmanlığın tənəzzül modelini təqdim edir: fiziki güc və siyasi status daxili harmoniya və ilahi əlaqə olmadan qəhrəmanlığı qoruyub saxlaya bilmir (Alter, 1981: 84–92).

Amos (Am) peyğəmbər obrazı isə qəhrəmanlığın intellektual və etik ölçüsünü təmsil edir. Amos nə kahin, nə də saray mənsubudur; o, "çoban və əncir ağacı becərən" sadə bir insandır (Amos, 7:14). Lakin məhz bu sosial mövqe ona cəmiyyətin ədalətsiz strukturlarını kənardan görmək və açıq şəkildə tənqid etmək imkanı verir. Amosun daxili mübarizəsi şəxsi təhlükəsizliklə ilahi missiya arasında baş verir. O, İsrailin rifah dövründə sosial bərabərsizliyi, yoxsulların istismarını və dini riyakarlığı ifşa edir (Amos, 2–6). Amosun qəhrəmanlığı fiziki qarşıdurmada deyil, sözün etik gücündə və mənəvi cəsarətdə təzahür edir. Onun peyğəmbərlik fəaliyyəti qəhrəmanlığı sosial ədalət və mənəvi məsuliyyətlə eyniləşdirir və bu, sonrakı dövrlərdə etik qəhrəmanlıq modelinin əsasını qoyur (Kugel, 1997: 211–224).

Göründüyü kimi, Əyyub, Saul və Amos obrazları "Əhdi-Ətiq"də qəhrəmanlığın psixoloji və mənəvi spektrini tamamlayır. Bu obrazlar dünya ədəbiyyatında psixoloji, faciəvi və etik qəhrəman modellərinin formalaşmasına güclü təsir göstərmişdir (Frye, 1982; Jung, 1968).

*Kollektiv qəhrəmanlıq motivi* "Əhdi-Ətiq"də də geniş işlənmişdir. Yusif aclığın qarşısını alır, həm Misiri, həm də ailəsini xilas edir, Ester və Mordexay isə xalqın məhv edilməsinin qarşısını diplomatik və etik qərarlarla alırlar, Musa və Yuşə sürgündən qaçan xalqa Səhrada rəhbərlik edib onları çarəsizlikdən xilas edirlər. Bu süjetlər göstərir ki, qəhrəmanlıq yalnız şəxsi şöhrət üçün deyil, toplum üçün hərəkətdə özünü göstərir.

*Fiziki gücə əsaslanan faciəvi qəhrəmanlıq: Samson.* Samson obrazı (Hakimlər, 13-16) "Əhdi-Ətiq"də fiziki güc və fövqəladə qabiliyyətin simvolu kimi təqdim edilməsinə baxmayaraq, onun qəhrəmanlığı faciəvi xarakter daşıyır. İlahi seçilmişliklə bəxş edilmiş fövqəladə güc şəxsi zəiflik və emosional nəzarətsizlik səbəbindən dağıdıcı nəticələrə gətirib çıxarır. Dalila ilə münasibət nəticəsində gücünü itirməsi və sonda öz ölümü

[1] "Əhdi-Ətiq" ibri mənbələrində "Tanax" adlanır. "Tanax" üç hissədən ibarət kitablar toplusudur: Tövrat, "Peyğəmbərlər" və "Yazılar".

[2] Leviatan – "Əhdi-Ətiq" və "Tanax"da qeyd olunan nəhəng, əfsanəvi dəniz canavarıdır. Əsasən qüdrət və xaosun simvolu kimi təsvir olunur. Müxtəlif mətnlərdə güclü, qorxulu və məğlubedilməz varlıq kimi göstərilir (məsələn: Əyyub, 41, Məzmur/Zəbur, 104).

bahasına düşmənlərini məhv etməsi klassik faciə süjetinin xüsusiyyətlərini göstərir. Samson tipi antik yunan ədəbiyyatındakı Herakl və Axilles kimi qəhrəmanlarla tipoloji oxşarlıq təşkil edir. Burada fiziki üstünlük qəhrəmanı xilas etmir, əksinə, onun faciəsinin əsas səbəbinə çevrilir.

*İkili qəhrəmanlıq və mənəvi məsuliyyət: Davud.* Davud "Əhdi-Ətiq" mətnlərində (1-2 Şamuel) ən mürəkkəb və çoxqatlı qəhrəman obrazlarından biridir. Onun həyat yolu çobandan kral səviyyəsinə yüksəliş, hərbi qələbələr və siyasi uğurlarla yanaşı, ciddi mənəvi sınaqlarla müşayiət olunur. Bətsəbəyə aşiq olub əri Uriyanın ölümünə bais olması kimi günah işlətməsi, sonradan səhvini başa düşüb tövbə etməsi faktı onu həm günahkar, həm də günahını anlayaraq mənəvi məsuliyyət daşıyan qəhrəman səviyyəsinə ucaldır. Davud həm qəhrəman döyüşçü, həm tövbə edən fiqur kimi təqdim olunur; onun qəhrəmanlığı fiziki deyil, mənəvi məsuliyyət və tövbə ilə ölçülür. Bu xüsusiyyət onu sonrakı Avropa ədəbiyyatında formalaşan daxili konfliktli qəhrəman modellərinin, xüsusilə Şekspir dramaturgiyasının psixoloji qəhrəmanlarının ilkin prototiplərindən birinə çevirir.

*Mənəvi və əxlaqi qəhrəmanlıq: Yusif və Daniel.* Yusif və Daniel mənəvi qəhrəmanlıq modelini təmsil edirlər. Yusif xəyanətə uğramasına baxmayaraq, qisas almır, bağışlayır və sədaqətini saxlayır, bu isə qəhrəmanlığın mənəvi üstünlükdən qaynaqlandığını göstərir. Daniel[1] isə siyasi təzyiq və fiziki təhlükə qarşısında inancından dönmür, passiv müqavimət nümunəsi kimi çıxış edir və mənəvi möhkəmliyin qalibiyyətini simvolizə edir. Bu tip qəhrəmanlıq modeli etik və ekzistensial qəhrəman obrazlarının formalaşmasına təkan vermiş və sonrakı dövrlərdə Dostoyevski və Tolstoy kimi yazıçıların mənəvi qəhrəman modellərində öz əksini tapmışdır. Frans Kafkanın "Metamorfoz" əsərində Qreqor Samsa obrazı "Əhdi-Ətiq"dəkı Danielə müvafiq şəkildə mənəvi və psixoloji sınaq arxetipi kimi çıxış edərək fiziki zəifliyinə baxmayaraq, daxili məsuliyyət və cəmiyyət qarşısında etik sınaq qəhrəmanlığını nümayiş etdirir.

"Əhdi-Ətiq"də qəhrəmanlıq anlayışı ilkin baxışda epik döyüşlər, fiziki güc və hərbi qələbələrlə əlaqələndirilsə də, mətnlərin dərin strukturu göstərir ki, bu anlayış tədricən transformasiyaya uğrayaraq mənəvi möhkəmlik, ilahi iradəyə sədaqət və xaos qarşısında insanın ontoloji mövqeyi ilə ölçülməyə başlayır. "Tanax"ın müxtəlif kitablarında təqdim olunan qəhrəman obrazları vahid bir xətt üzrə oxunduqda bu xəttin mərkəzində insanla xaosun, insanla Tanrının və insanın öz taleyi ilə mübarizəsi dayanır.

Bu xəttin ən erkən və ilahi səviyyəli ifadələrindən biri Leviatan obrazıdır. "Əyyub kitabı"nda Leviatan insan üçün ramedilməz, yalnız Tanrının hökmü altında olan ilkin dəniz xaosu kimi təsvir edilir (Əyyub, 41). "Zəbur" mətnlərində isə Leviatan Tanrı tərəfindən məhv edilən və yaradılış nizamına tabe edilən ilahi güc kimi təqdim olunur (Zəbur, 74:13–14). Burada qəhrəmanlıq insanın payına düşmür; insan bu xaos qarşısında acizdir və məhz bu acizlik Tanrının mütləq suverenliyini vurğulayır. Lakin "Tanax"ın sonrakı süjetlərində insan artıq bu xaosla dolayı yolla qarşılaşır və qəhrəmanlıq fərqli formalarda təzahür edir.

Bu qarşılaşmanın ən simvolik formalarından biri Yunus peyğəmbərin hekayəsidir. Yunus Tanrının əmrindən qaçaraq dənizə üz tutur, lakin ilahi iradədən qaçış mümkün olmur. *"Rəbb böyük bir balıq göndərdi ki, Yunusu udsun"* (Yunus, 1:17). Balığın qarnı burada fiziki məkan olmaqdan çıxaraq ölümə bərabər metafizik sınaq sahəsinə çevrilir. Yunus Leviatanı məhv etmir, onunla döyüşmür; o, xaosun içində qalaraq daxili dönüş

[1] "Əhdi-Ətiq", "Daniel kitabı" (e.ə. VI və ya e.ə. II əsr). Kitab əsasən Danielin Babil sürgünü zamanı yaşadıqları, peyğəmbərlik vəhyləri və Tanrıya sadiqliyindən bəhs edir.

yaşayır. Balığın qarnında etdiyi dua və tövbə Yunusun qəhrəmanlığını formalaşdırır. Bu epizod "Tanax"da epik qəhrəmanlıqdan etik və mənəvi qəhrəmanlığa keçidin ən aydın nümunəsidir. Azərbaycan folklorunda Leviatanı bəzi hallarda "əjdaha" obrazı ilə eyniləşdirmək olar. Lakin onu da qeyd etmək lazımdır ki, Leviatan daha metafizik və dini simvoldur və əsasən dənizdə peyda olur. Əjdaha isə folklor və epik qəhrəmanlıq hekayələrində düşmən kimi, daha fiziki və görsəl təsvir olunur.

Eyni konseptual xətt Yaqubun Allahla gecə mübarizəsində də müşahidə olunur. "Yaradılış kitabı"nda Yaqub naməlum varlıqla – ilahi təcəlli[1] ilə gecə boyu mübarizə aparır (Yaradılış, 32:24–30). Bu mübarizə nə hərbi, nə də fiziki qələbə ilə nəticələnir. Yaqub zədələnir, lakin geri çəkilmir və nəticədə yeni ad alır: İsrail – "Allahla mübarizə aparan". Bu epizod "Tanax"da bənzəri olmayan metafizik qəhrəmanlıq nümunəsidir: insan Tanrı ilə döyüşür, lakin bu döyüş itaətsizlik yox, taleyi qəbul etmə və ilahi seçilmişliyi təsdiqləmə aktı kimi təqdim edilir.

Qəhrəmanlığın daha kollektiv forması Musa obrazında təcəssüm edir. Musa Qızıl dənizi yararaq İsrail xalqını Misirdən çıxarır (Çıxış, 14). Burada xaos ikiqatdır: bir tərəfdən Fironun ordusu, digər tərəfdən dənizin özü. Musa fərdi qəhrəman kimi deyil, Tanrı ilə xalq arasında vasitəçi kimi çıxış edir. Dənizin yarılması Leviatan motivinin rituallaşdırılmış variantı kimi başa düşülə bilər: xaos məhv edilmir, bölünür və nəzarət altına alınır. Musanın qəhrəmanlığı fərdi güc deyil, ilahi vəhyə sədaqət və kollektiv xilasedici missiya ilə ölçülür.

Bu süjet Yuşə (Yehoşua) obrazı üzərində davam edir. Yuşə Musanın varisi olaraq, Allah tərəfindən İsrail oğulları üçün vəd edilmiş və onlara təhvil veriləcək torpağın fəthinə rəhbərlik edir. O, Misirdən çıxışdan sonra İsrail xalqını səhrada yönəldən, dini və tarixi nizamın reallaşmasını təmin edən bir vasitəçidir. Yerixonun divarlarının süqutu klassik hərbi strategiya ilə deyil, ritual mərasim və ilahi əmrin dəqiq icrası sayəsində baş verir (Yehoşua, 6). Onun qəhrəmanlığı fiziki deyil, mənəvi itaət və sadiqlik üzərində qurulur.

"Əhdi-Ətiq"də epik qəhrəmanlıq modelinin ən klassik nümunəsi Davud və Qolyat qarşıdurmasıdır. Filistli döyüşçü Qolyat nəhəng bədəni, silahları və qorxuducu çıxışları ilə xaosun antropomorf simvoludur (1 Şamuel, 17). Davud isə silahsız, gənc və zahirən zəifdir. Onun qələbəsi fiziki gücə deyil, Tanrının adına və seçilmişliyinə əsaslanır. Qolyat Leviatanın insan ölçüsünə salınmış formasıdır. Davudun onu məğlub etməsi isə epik qəhrəmanlıqla teoloji legitimliyin birləşdiyi ilahi məqamdır.

Bu ardıcıllıq İlyas peyğəmbərin obrazında yeni mərhələyə çatır. İlyas Karmel dağında Baal tanrısına xidmət edən kahinlərlə qarşıdurmaya çıxır. Bu, sadəcə insan qarşıdurması deyil, sakral mübarizədir (I Padşahlar, 18). Lakin İlyasın əsl sınağı bundan sonra başlayır: o, İzevelin qorxusundan səhraya qaçır və mağarada Tanrını nə odda, nə zəlzələdə, nə də küləkdə, "incə bir səsdə" tapır (I Padşahlar, 19). Bu səhnə "Tanax"da qəhrəmanlığın kulminasiyası hesab olunur: Tanrı artıq xaos şəraitində deyil, sükutda təzahür edir. Burada qəhrəmanlıq mənəvi səbirlə ölçülür.

Göründüyü kimi, "Əhdi-Ətiq"də qəhrəmanlıq anlayışı təkamül yolu keçir. Leviatanla ölçülən ilahi gücdən Yunusun daxili tövbəsinə, Yaqubun metafizik mübarizəsindən Musanın kollektiv xilasedici missiyasına, Davudun epik qələbəsindən Əyyubun səssiz dözümünə və İlyasın sükutda tapdığı ilahi həqiqətə qədər bu yol insanın Tanrı

[1] İlahi təcəlli (ərəb. tajallī, lat. manifestatio divinitatis) – Tanrının və ya ilahi qüvvənin açıq-aşkar görünməsi, təzahür etməsi prosesidir.

qarşısında yerini dərk etməsi ilə tamamlanır. “Tanax”ın qəhrəmanı xaosu məhv edən obraz deyil, onun mənasını anlayan və ilahi nizama tabe olan insandır.

## 4. “Əhdi-Ətiq” süjetlərinin klassik dünya ədəbiyyatında transformasiyası; Azərbaycan ədəbiyyatında paralellər

“Əhdi-Ətiq” mətnləri yalnız yəhudi və xristian ənənələrinin dini bazasını təşkil etmir, eyni zamanda, dünyanın müxtəlif ədəbi mədəniyyətlərinə arxetipik motivlərin ötürülməsi və reinterpretasiyası baxımından zəngin mənbə kimi çıxış etmiş və hələ də bu mətnlərdə təsvir olunan qəhrəmanlar həm fərdi, həm kollektiv səviyyədə məsuliyyət, iman, sınaq və mənəvi konflikt kimi universal mövzuların ədəbi prototiplərini yaradır. Dünya ədəbiyyatında bir çox klassik və müasir əsərlər “Əhdi-Ətiq” arxetipləri ilə dialoqa girərək yenidən canlandırılmış və daha da genişləndirilmişdir. Bunu dünya ədəbiyyatından bir sıra nümunələrdə nəzərdən keçirək.

“Əhdi-Ətiq”də Yuşə obrazı və mətnin motivi dünya ədəbiyyatında səfər və missionerlik arxetipi ilə paralelləşdirilir. Con Bunyanın “Zəvvarın Səyahəti” əsərində qəhrəman Tanrıya sadiq qalaraq mənəvi səfərdə irəliləyir; burada fiziki əngəllər deyil, mənəvi itaət və nizam ön plana çəkilir.

İlyas peyğəmbərin Karmel dağında Baal kahinləri ilə sakral mübarizə motivi mənəvi daxili konflikt arxetipi kimi Avropa ədəbiyyatında da geniş yayılıb. Məsələn, Dostoyevskinin “Cinlər” və “Karamazov qardaşları” romanlarında xarakterlər yalnız ictimai konfliktlə deyil, daxili sükutla ön plana çəkilirlər.

Əyyubun hekayəsi sınaqdan keçmə, iztirab və iman arxetipini sərgiləyir. Fransız yazıçısı Alber Kamyunun “Yad”, “Vəba” romanlarında, alman filosof-yazıçısı Tomas Mannın “Doktor Faust” əsərində, alman yazıçısı Yohann Volfqanq Götenin “Faust” dramında, rus müəllifləri Fyodor Dostoyevskinin “Cinayət və cəza”, Lev Tolstoyun isə “Dirilmə” əsərində Əyyub arxetipinə oxşar mənəvi sınaq, əzab və iztirab, qərarsızlıq və daxili dialoq öz konkret əksini tapmışdır.

“Əhdi-Ətiq”in “Yazılar” hissəsinə daxil olan “Məzmur”larda (Zəbur) Kral Davudun həyatı ilə yanaşı, onun liderlik keyfiyyətləri, poetik duaları və tövbə motivi birləşir; bu arxetipin ədəbi təsiri Uilyam Şekspirin “Kral Lir” və “Hamlet” kimi əsərlərində şah obrazlarının daxili sorğu və məsuliyyətinin təhlilində əks olunur.

Dante Aliqyeri “İlahi Komediya”da Tanrının mühakiməsi, cəza və xilaskar süjeti vasitəsilə “Tanax” motivli mənəvi sınaq və qurtuluş strukturunu epik şəkildə təkrarlayır. Bu əsər Tanrı ədaləti və ruhun səyahəti kimi Əyyub və “Məzmur” motivlərini ümumbəşəri dildə ifadə edir.

Con Miltonun “İtirilmiş cənnət” (Paradise Lost) poemasında isə cənnətdən qovulma və azad iradənin sınağı kimi Tövratdakı Adəm və Həvva hekayəsinin genişləndirilmiş, tragik-epik versiyası verilir. Bu da insanın Tanrı ilə münasibətindəki konflikt və günahsonrası məsuliyyət arxetiplərini mərkəzə çəkir.

Mixail Bulqakovun “Ustad və Marqarita” romanı isə İblis arxetipini müasir dövr kontekstində əks etdirir. Burada Şeytan obrazı vasitəsilə mənəviyyat, azadlıq və cəmiyyət arasındakı çəkişmələr poetik-fəlsəfi planda təqdim edilir. Hüseyn Cavidin “İblis” dramında olduğu kimi, həm şər, həm də insanın daxili konfliktləri araşdırılır. Aleksandr Puşkinin “Yevgeni Onegin” roman-poeması və Mixail Lermontovun “İblis” poeması “Tanax”ın sosial və mənəvi konfliktlərini – sevgi, məsuliyyət və seçim kimi cəhətləri insan xarakterinin iç səsinə bağlayır. Azərbaycan ədəbiyyatçıları tərəfindən,

xüsusilə Hüseyn Cavidin poetik və fəlsəfi dialoqlarında poetik dil vasitəsilə bu motivlər, mənəvi konflikt, seçimin ağırlığı və varlıq kimi dərin keyfiyyətlər ön plana çəkilmişdir.

"Əhdi-Ətiq" arxetipləri – səbir və sınaq (Əyyub), iman və vasitəçilik (Yuşə), daxili sükutda Tanrını tapmaq (İlyas), poeziya və tövbə (Davud) – dünya ədəbiyyatında yalnız motiv olaraq qalmayıb, əsas struktur və tematik prinsiplərə çevrilib. Bu arxetiplər Avropa ədəbiyyatında Bunyan, Dostoyevski, Şekspir, Kafka, Dante, Milton, Tomas Mann, Şərq klassik poeziyasında Yusif və Züleyxa motivi, Azərbaycan dramaturgiyasında Hüseyn Cavidin fəlsəfi dramları, müasir ədəbi ənənədə isə daxili konflikt, mənəvi sorğu və insanın Tanrı ilə dialoqu kimi universal ədəbi mövzulara çevrilib.

Göründüyü kimi, "Əhdi-Ətiq" motivləri Azərbaycan ədəbiyyatında da özünü mənəvi və etik qəhrəmanlıq konsepsiyası şəklində göstərir. Nizami Gəncəvi "Yusif və Züleyxa" poemasında Yusif motivini adaptasiya edərək mənəvi sınaq və əxlaqi məsuliyyəti ön plana çıxarır. Füzuli isə "Leyli və Məcnun" əsərində daxili əzab, sevgi və fədakarlıq kimi qəhrəmanlıq elementlərini işlədir ki, bu motivlərin Debora və Ester kimi "Tanax" personajlarının mənəvi-etik təcrübələri ilə tipoloji oxşarlığı özünü göstərir. Bu nümunələr göstərir ki, "Əhdi-Ətiq" motivləri Azərbaycan klassik ədəbiyyatında yalnız dini və tarixi mənaya malik olmayıb, həm də mənəvi və etik qəhrəmanlıq konsepsiyasının formalaşmasında və ədəbi təfəkkürün inkişafında mühüm rol oynayıb.

## Nəticə

Beləliklə, qeyd edə bilərik ki, "Tanax" mətnləri yalnız tarixi-dini mənbə deyil, qlobal ədəbi arxetiplərin formalaşmasında və dünya ədəbiyyatının fundamental əsərlərinin yaranmasında, eləcə də Azərbaycan ədəbiyyatında mənəvi və etik qəhrəmanlıq anlayışının təzahüründə əsaslı rol oynayan ədəbi-mədəni kodeksdir.

"Əhdi-Ətiq" qəhrəmanlıq modeli dünya və Şərq ədəbiyyatında, o cümlədən, Azərbaycan ədəbiyyatında həm süjet, həm də obraz səviyyəsində təsirini qoruyub saxlamışdır. "Əhdi-Ətiq"dəki süjetlər Qədim Şərqin sosial, siyasi və mədəni reallıqlarını əks etdirir və qadınların, ailənin, xalqın rolu, sosial ədalət və hüquqi sistemin formalaşması ədəbi təhlil üçün əsas yaradır. "Əhdi-Ətiq", həmçinin, qəhrəmanların psixoloji və mənəvi mürəkkəbliyini vurğulayan süjetlər təqdim edir.

"Əhdi-Ətiq"dəki qəhrəmanlıq motivləri onu transmədəni və universal edir, epik, faciəvi və psixoloji ədəbiyyatın əsasını təşkil edir.

## QAYNAQLAR:

1. Alter, Robert. (1981). *The Art of Biblical Narrative*. New York, NY: Basic Books.
2. Auerbach, E. (1953). *Mimesis: The Representation of Reality in Western Literature*. Princeton, NJ: Princeton University Press.
3. Berlin, Adele. (1983). *Poetics and Interpretation of Biblical Narrative*. Sheffield: Almond Press.
4. Brueggemann, Walter. (1997). *Theology of the Old Testament: Testimony, Dispute, Advocacy*. Minneapolis, MN: Fortress Press.
5. Campbell, Joseph. (1949). *The Hero with a Thousand Faces*. Princeton, NJ: Princeton University Press.
6. Childs, Brevard S. (1979). *Introduction to the Old Testament as Scripture*. Philadelphia, PA: Fortress Press.

7. Clines, David J. A. (1986). *Word Biblical Commentary, Vol. 18B. Job 38–42.* Dallas: Word Books.
8. Clifford, R. J. (1990). *Introducing the Old Testament: A Short Guide to Its History and Message.* Paulist Press.
9. Cogan, M. (2001). *Kings. Anchor Yale Bible, Vol. 10.* New Haven: Yale University.
10. Day, J. (1985). *God`s Conflict with the Dragon and the Sea: Echoes of a Canaanite Myth in the Old Testament.* Cambridge: Cambridge University Press.
11. Eliade, M. (1963). *Myth and Reality*. New York: Harper & Row.
12. Eliade, M. (1959). *The Sacred and the Profane: The Nature of Religion*. New York: Harcourt, Brace & World.
13. Exum, J. (2000). *Plotted, Shot, and Painted: Literary and Artistic Representations of Biblical Women.* Louisville, KY: Westminster John Knox Press.
14. Fretheim, Terence E. (1991). *Exodus.* Louisville: Westminster John Knox Press.
15. Frye, N. (1982). *The Great Code: The Bible and Literature.* London: Routledge & Kegan Paul.
16. Haqverdiyev, Ə. (1988). Aydın. Bakı: Yazıçı
17. Hüseyn Cavid. (2005). *İblis.* Bakı: Şərq-Qərb
18. Jung, C. G. (1968). *The Archetypes and the Collective Unconscious (2nd ed.*). Princeton, NJ: Princeton University Press.
19. *Kitabi-Dədə Qorqud*. (2004). Azərbaycan xalq dastanı. Bakı: Elm
20. Kugel, James L. (1997). *The Bible as It Was.* Belknap Press of Harvard University Press.
21. Mann, T. (1943). *Joseph and His Brothers.* New York, NY: Alfred A. Knopf.
22. Məmmədquluzadə, C. (1987). *Ölülər.* Bakı: Yazıçı
23. Milton, J. (2005). *Paradise Lost.* W. W. Norton.
24. Nizami Gəncəvi. (2004). *Xosrov və Şirin.* Bakı: Şərq-Qərb
25. Nizami Gəncəvi. (2004). *Leyli və Məcnun*. Bakı: Şərq-Qərb
26. Ricoeur, P. (1995). *Figuring the Sacred: Religion, Narrative, and Imagination.* Minneapolis, MN: Fortress Press.
27. Sarna, Nahum M.(1989). *Genesis: The Traditional Hebrew Text with the New JPS Translation.* Philadelphia: Jewish Publication Society.
28. Shakespeare, W. (1998). *The Complete Works of William Shakespeare*. Sterling.
29. Smith, Mark S. (2001). *The Origins of Biblical Monotheism.* Oxford: Oxford University Press.
30. Steinbeck, J. (1952). *East of Eden*. New York, NY: Viking Press.
31. Trible, P. (1995). *Texts of Terror: Literary-Feminist Readings of Biblical Narratives*. Philadelphia, PA: Fortress Press.
32. *The Holy Bible. New Revised Standard Version*. (1989). Oxford: Oxford University Press.
33. *Ветхий Завет (Синодальный перевод).* (2011). Москва: Российское Библейское Общество.
34. Гомер. (1986). *Илиада*. пер. Н. И. Гнедича. Москва: Художественная литература.
35. Достоевский, Ф. М. (1970). Преступление и наказание. Москва: Художественная литература.
36. Толстой, Л. Н. (1983). *Война и мир. В 2 т*. Москва: Художественная литература.

### *The Theme of Heroism in the Texts of the Old Testament and Its Archetypal Role in World Literature*

***TARANA HUSEYNBALAYEVA****

***Summary***

*This article examines the theme of heroism in the texts of the Old Testament and its archetypal role in world literature. Heroism in biblical narratives is presented not merely as physical strength or military valor, but primarily as a form of spiritual endurance and moral struggle. Special attention is given to the figures of Abraham, Job, and Saul, whose stories reflect inner conflict, doubt, and responsibility before divine will. The biblical hero is often placed in situations that require a difficult choice between personal desire and a higher moral law. These narratives create enduring archetypes that have significantly influenced later literary traditions. The article draws parallels between Old Testament motifs and the works of William Shakespeare, Fyodor Dostoevsky, and Franz Kafka. It demonstrates that the psychological complexity and tragic depth of biblical characters are echoed in the protagonists of modern literature. Thus, the Old Testament is analyzed as a foundational source in the formation of heroic archetypes within world literature.*

***Keywords:*** *Old Testament, heroism motif, biblical heroes, archetype, psychological complexity, moral trial, world literature.*

### *Тема героизма в текстах Ветхого Завета и её архетипическое место в мировой литературе*

***ТАРАНА ГУСЕЙНБАЛАЕВА*****

***Резюме***

*В данной статье рассматривается тема героизма в текстах Ветхого Завета и её архетипическое значение в мировой литературе. Героизм в библейских повествованиях представлен не только как проявление физической силы или воинской доблести, но прежде всего как форма духовного и нравственного подвига. Особое внимание уделяется образам Авраама, Иова и Саула, в судьбах которых отражаются мотивы внутренней борьбы, сомнения и ответственности перед Божественной волей. Библейский герой часто оказывается в ситуации выбора между личным желанием и высшим нравственным законом. Эти образы формируют устойчивые архетипы, оказавшие значительное влияние на развитие мировой литературы. В статье проводится сопоставление библейских мотивов с произведениями У. Шекспира, Ф. М. Достоевского и Ф. Кафки. Показано, что психологическая глубина и трагизм ветхозаветных персонажей находят отражение в образах героев Нового времени. Таким образом, Ветхий Завет рассматривается как один из фундаментальных источников формирования архетипа героического сознания в мировой литературной традиции.*

***Ключевые слова:*** *Ветхий Завет, мотив героизма, библейские герои, архетип, психологический конфликт, нравственное испытание, мировая литература.*

| | |
|---|---|
| **Redaksiyaya daxil olma tarixi:** | **05.12.2025** |
| **Çapa qəbul tarixi:** | **07.01.2026** |
| **Çap olunma tarixi:** | **28.01.2026** |

** Doctor of Philosophy in Philology, Associate Professor; Baku State University, Faculty of Oriental Studies; taranahuseynbalayeva@bsu.edu.az; https://orcid.org/0000-0002-1246-7842.

*** Кандидат филологических наук, доцент; Бакинский Государственный Университет, Факультет востоковедения; taranahuseynbalayeva@bsu.edu.az; https://orcid.org/0000-0002-1246-7842.